**Azərbaycan tarixin ən qədim dövrlərindən bu günədək müxtəlif dinlərin, etnik qrupların məskunlaşdığı multikultural məkan olmuşdur. Dinindən, dilindən, milliyyətindən asılı olmayaraq insanlar arasında bərabərlik, bir-birinin adət və ənənələrinə hörmətlə yanaşma prinsipləri əsrlər boyu inkişaf etmiş, Azərbaycanın dövlətçilik ideyalarını daha da zənginləşdirmişdir. Dinlərarası vahid tolerant münasibətlərin formalaşması isə ölkədə azərbaycançılıq ideyalarının inkişaf etməsinə əsaslı zəmin yaratmışdır. Xalqın təkidli xahişi ilə Heydər Əliyev yenidən hakimiyyətə gəldikdən sonra Azərbaycanı düşdüyü çətin vəziyyətdən xilas etmək üçün uzaqgörənliklə yeni inkişaf strategiyasını irəli sürdü. Gələcək inkişafın əsasını iqtisadi tərəqqi ilə yanaşı, həm də multikultural dəyərlər əsasında izah edərək bildirdi: "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq".**

# Ulu Öndər və multikultural dəyərlər

Azərbaycançılıq ideologiyası özündə tolerant münasibəti də ehtiva edir. Ümummilli lider Heydər Əliyevin göstərişi ilə onun rəhbərliyi dövründə hazırlanan bütün hüquqi əhəmiyyətə malik olan sənədlərdə, Azərbaycan Respublikasının Konstitusiyasında ölkəmizdə yaşayan milli, etnik, dini azlıqların hüquq bərabərliyinin qorunması tam şəkildə öz əksini tapdı. Dövlətin əsas qanunu olan bu sənəd dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik olmasını təmin etdi. Ulu öndər Heydər Əliyev multikulturalizmin əsas bazasının azərbaycançılıq olduğunu bildirərək qeyd etdi ki, Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı, ləzgi, avar, kürd, talış, udin, kumık da bütünlükdə hamısı azərbaycanlıdır. Ümummilli lider Heydər Əliyev bütün rəhbərliyi dövründə multikulturalizm siyasətinə üstünlük vermiş, onu dünya miqyasında həyata keçirmək üçün BMT, ATƏT, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq etməyə üstünlük vermişdi. Bu səbəbdən də ölkəmiz insan hüquqları və milli azlıqların müdafiəsi ilə bağlı olan bir çox beynəlxalq konvensiyalara qoşulmuşdu.

Avropa Şurasının "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası" Azərbaycan hökuməti tərəfindən 1995-ci il fevralın 1-də imzalanmış və 2000-ci il 16 iyun tarixli Qanunla ratifikasiya edilmişdir. İndi də hər beş ildən bir Azərbaycan Respublikası "Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası" üzrə üzərinə düşən öhdəliklərin yerinə yetirilməsi ilə bağlı Avropa Şurasına hesabat təqdim edir. Ümumiyyətlə, ulu öndər Heydər Əliyev multikulturalizmi azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi təqdim etməklə, Azərbaycanda multikulturalizm siyasətinin əsasını qoymuşdur. Hazırda bu siyasəti Azərbaycan Respublikası Prezidenti İlham Əliyev uğurla davam etdirir. İndi Azərbaycan Respublikası bütün dünyada multikulturalizm siyasətinin həyata keçməsinə töhfələr verən ən qabaqcıl ölkələrdən biridir.

Milli azlıqların hüquqları 1990-cı il iyunun 29-da qəbul edilmiş ATƏT-in İnsan meyarı Konfransına dair Kopenhagen Müşavirəsinin sənədində belə müəyyənləşdirilmişdir: "Milli azlıqlara mənsub şəxslərin öz etnik mədəniyyət, dil, yaxud din özünəməxsusluğunu azad surətdə ifadə etmək, qoruyub saxlamaq və inkişaf etdirmək, öz iradəsinin əksinə olaraq, heç bir assimilyasiya təşəbbüsünə məruz qalmadan bütün cəhətləriylə öz mədəniyyətini azad surətdə dəstəkləmək və onu inkişaf etdirmək hüquqları var. Xüsusilə onlar aşağıdakı hüquqlara malikdirlər: şəxsi və ictimai həyatda öz ana dilindən azad surətdə istifadə etmək; milli dövlət qanunvericiliyinə uyğun olaraq könüllü maliyyə yardımını və digər yardımları, eləcə də dövlət dəstəyi axtara biləcək xüsusi təhsil, mədəniyyət və dini müəssisələrini, təşkilat və ya assosiasiyalarını yaratmaq və dəstəkləmək; öz dininə etiqad etmək, o cümlədən dini materialı əldə etmək, ona sahib olmaq, ondan istifadə etmək və öz ana dilindəki təhsil sahəsində dini fəaliyyəti həyata keçirmək; öz ölkəsinin hüdudları daxilində öz aralarında, eləcə də digər dövlətlərin ümumi etnik və ya milli mənşəyi, mədəni mirası və ya dini etiqadı olan vətəndaşları ilə maneəsiz əlaqələr qurmaq və əlaqələri davam etdirmək; öz ana dilində məlumatı yaymaq, ondan istifadə yoluna malik olmaq və məlumat mübadiləsi etmək; öz ölkəsinin hüdudları daxilində təşkilatlar, yaxud assosiasiyalar yaratmaq və dəstəkləmək, beynəlxalq qeyri-hökumət təşkilatlarının fəaliyyətində iştirak etmək.

Azərbaycan isə hələ qədim dövrlərdən multikultural bir ərazi olmuşdur. Burada yaşayan müxtəlif konfessiyaların, etnik birliklərin dostluq və mehribançılıq münasibətləri tarixin qədim dövrlərindən formalaşmışdır. Məhz bu səbəbdən də Azərbaycan xalqının çoxəsrlik multikultural dəyərlərinə əsaslanaraq ölkə Prezidenti İlham Əliyev "Bu gün multikulturalizmin dünyada alternativi yoxdur", - bəyanatı ilə çıxış etmişdir.

Başqa dövlətlərdən fərqli olaraq "İlkin müxtəliflik" Azərbaycanda özünü göstərən nadir xüsusiyyətlərdəndir. Buna görə də Qərb ölkələrindən fərqli olaraq Azərbaycan Respublikasında multikulturalizm dövlət siyasəti kimi davamlı şəkildə həyata keçirilir.

Azərbaycanda multikulturalizmin əhəmiyyəti nəzərə alınaraq 11 yanvar 2016-cı il ölkə Prezidentinin Sərəncamı ilə "Multikulturalizm İli" elan edilmişdir. 11 mart 2016-cı ildə isə "Multikulturalizm İli" ilə əlaqədar olaraq tədbirlər planı təsdiq olunmuşdur.

Tədbirlər planında qeyd olunmuşdur ki, bu tədbirlərin həyata keçirilməsi Azərbaycan multikulturalizm modelinin elmi cəhətdən öyrənilməsinə, təkmilləşdirilməsinə və ölkə əhalisi, xüsusilə də gənclər arasında yayılmasına, Azərbaycanda yaşayan bütün xalqların, etnik qrupların və dini konfessiyaların nümayəndələri arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da güclənməsinə, onların yaşadıqları cəmiyyətə inteqrasiya olunmasına, Azərbaycanın dünyanın əsas multikulturalizm mərkəzindən biri kimi tanınmasına və müxtəlif ölkələrdə mövcud olan mütərəqqi multikulturalizm modelinin ölkəmizdə təbliğ və təşviq edilməsinə yönəlmişdir.

Prezident İlham Əliyevin multikulturalizm siyasətinə yüksək qiymət verməsi ölkənin daxili siyasəti ilə yanaşı, xarici siyasətində də özünü büruzə verir. Ardıcıl olaraq ölkəmiz dünyada mədəniyyətlər və sivilizasiyalararası dialoqun təşviq olunmasına həsr olunmuş bir çox beynəlxalq forumlara, konfranslara evsahibliyi edir. Məsələn, 2011-ci ildən indiyədək Bakıda Ümumdünya Mədəniyyətlərarası dialoqun dörd forumu təşkil olunmuşdur. Bakı Beynəlxalq Humanitar Forumları və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu keçirilmişdir.

Beləliklə, multikulturalizm siyasətinin meydana gəldiyi bir sıra Avropa dövlətlərinin (Almaniya, Böyük Britaniya və Fransa) başçıları bu siyasətin ölkələrində iflasa uğradığını bəyan etdikləri bir dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizm siyasətinin müasir dövrdə cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin tənzimlənməsində ən mütərəqqi və optimal olduğunu qeyd edir və onun təbliği, təşviqi istiqamətində çox böyük işlər həyata keçirir. Avropada multikulturalizmə münasibətdə artan inamsızlığa təəssüf hissilə yanaşan Prezident İlham Əliyev deyir: "Bəzi bəyanatlar bizi məyus edir ki, multikulturalizm iflasa uğradı, multikulturalizmin gələcəyi yoxdur. Bu, çox təhlükəli bəyanatdır. Qeyd etməliyəm ki, multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu ayrı-seçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

Azərbaycan xalqının multikulturalizm ənənələrinə gəlincə isə, multikulturalizm miqrantların onları qəbul edən cəmiyyətə inteqrasiyası zərurətinin nəticəsi olduğu Qərbi Avropa ölkələrindən fərqli olaraq, Azərbaycanda multikulturalizm bu qədim torpağın bütün sakinlərinin tarixən dəstəklədikləri həyat tərzidir. Etnik tolerantlıq və dini dözümlülük həm keçmiş, həm də indiki sakinlərin inancların uzun müddət yanaşı olmasının nəticəsidir. Bu səbəbdən də etnik, milli, dini müxtəliflik Azərbaycan dövlətinin möhkəm güc bazasıdır. Bu fikir artıq qalibiyyətlə nəticələnən İkinci Qarabağ müharibəsində də özünün təsdiqini tapdı. Burada yaşayan ruslar, ləzgilər, talışlar Vətən uğrunda gedən müharibəyə qoşuldular və qəhrəmanlıqlar göstərdilər.

Hüquqi dövlət quruculuğu yolu ilə gedən Azərbaycan Respublikasında bütün xalqlar və milli azlıqlar qardaşlıq və dostluq ailəsində yaşayırlar. Əsrlər boyu Azərbaycanda mehriban, dinc yanaşı yaşama şəraitində yaşayan xalqlar, ölkəmiz müstəqilliyi bərpa etdikdən sonra, daha geniş hüquq və azadlıqlar əldə etdi, bütün çətinlikləri və maneələri azərbaycanlılarla birgə dəf edərək, bugünkü inkişafımıza öz töhfələrini verdilər.

1985-ci ildə isə sovet dövlətində Mixail Qorbaçovun hakimiyyətə gəlməsi ilə ölkədə millətlərarası qarşıdurmalara rəvac verildi. Ermənistan ölkəmizə qarşı ərazi iddiaları qaldırdı. Ermənilərin Qarabağın dağlıq hissəsində separatçılıq hərəkətləri Ermənistanın təcavüzkar siyasətinə çevrildi. Bu səbəbdən də Azərbaycanda milli azadlıq hərəkatı meydana gəldi və bütün xalq öz vətənini təcavüzdən qorumaq üçün ayağa qalxdı.

18 oktyabr 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə azərbaycançılıq ideyası tarixində tamamilə yeni bir mərhələ başlandı.

Multikulturalizm siyasəti azərbaycançılığın sosial bazasını daha da möhkəmləndirir, bu ideologiyanın ölkədə yaşayan bütün xalqların siyasi, iqtisadi, sosial və mədəni yüksəlişini təmin edir. Ulu öndər Heydər Əliyev multikulturalizmi Azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi Azərbaycan cəmiyyətinə təqdim etdi. O, siyasi və hüquqi sahələrdə multikulturalizmin dil və milli xüsusiyyətlərini sənədlərlə təsdiqlədi. Buna görə də ulu öndər həm də Azərbaycan multikulturalizminin siyasi banisi hesab olunur.

***Fazilə HÜSEYNLİ,***
**ADPU-nun Fəlsəfə və sosial elmlər kafedrasının baş müəllimi.**

Respublika .- 2023.- 9 may.- S.8.